Ədəbiyyat qəzeti

16 yanvar / 2021

# *Xalq şairi, Dövlət mükafatı laueratı Fikrət Qocanın on cildliyi nəşr edilmişdir*




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə Xalq şairi, Dövlət mükafatı laueratı Fikrət Qocanın on cildliyi "Renessans-A" nəşriyyatında çap olunmuşdur.

Kitabdakı altmış ildən artıq yaradıcılıq nümunələri mövzu və tarixi ardıcıllıqla deyil, sərbəst sıralanmışdır.

Oxucular I-V cildlərdə şairin şeirləri, VI cilddə poemaları, VII cilddə mahnı mətnləri, VIII-X cildlərdə isə hekayə və romanları ilə tanış olacaqlar.

Kitabın annotasiyasında deyilir:

"Azərbaycan Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın on cildliyində onun müxtəlif janrlarda yazılmış əsərləri toplanmışdır. Yazarın şeirləri, poemaları, hekayələri, romanları, romantik, realist, müdrik yanaşmalarla insan ruhunun, kainatın, təbiətin sirlərinin poetik, fəlsəfi, əxlaqi dəyərlərini incələməyə çalışır, qurub-yaratmağa, ömrün qədrini bilməyə, var olanları qorumağa çağırır. Onun Azərbaycana olan sevgisi tükənməzdir. Yazdığı nəğmə mətnləri insanlığın səsidir".

Kitabların redaktoru və ön sözün müəllifi Əjdər OL, tərtibçiləri isə Gülxani Pənah və Raya Eyvazqızıdır.